# «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003—2012-ci illər)» təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 9 yanvar tarixli 865 nömrəli Sərəncamına əsasən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birlikdə hazırlanmış, müvafiq milli və beynəlxalq qurumların müsbət rəyini almış «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiyanın (2003—2012-ci illər)» Azərbaycan Respublikası üçün əhəmiyyətini nəzərə alaraq **qərara alıram:**

1. «Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003—2012-ci illər)» təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 17 fevral 2003-cü il***

***№ 1146***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (18 fevral 2003-cü il, № 38) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (28 fevral 2003-cü il, № 2, maddə 101) («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 17 fevral tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur*

# Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003—2012-ci illər)

# 1. Giriş

XX əsrin son onilliyində informasiya və kommunikasiya texnologiyaları cəmiyyətin inkişafına təsir göstərən əsas amillərdən birinə çevrilmişdir. Onların təsir dairəsi dövlət strukturlarını və vətəndaş cəmiyyəti institutlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti və bütövlükdə insanların həyat tərzini əhatə etmişdir. Bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr informasiya və kommunikasiya texnologiyalarının verdiyi üstünlüklərdən faydalanırlar. Hazırda informasiya cəmiyyətinə istiqamətlənmiş yolun bəşəriyyətin gələcəyinə gedən yol olduğu artıq heç kimdə şübhə doğurmur.

İnformasiya cəmiyyətinin əsas xüsusiyyətləri sırasına aşağıdakıları aid etmək olar:

- qlobal informasiya mühitinin yaradılması;
- informasiya və kommunikasiya texnologiyalarından kütləvi istifadə edilməsi, sosial və iqtisadi fəaliyyətin yeni formalarının yaranması;
- informasiyanın əmtəəyə çevrilməsi, informasiya və bilik bazarının yaradılması və inkişafı;
- təhsil sisteminin təkmilləşməsi, beynəlxalq, milli və regional səviyyədə informasiya mübadiləsi sistemlərinin imkanlarının genişlənməsi hesabına peşə və ümumi mədəniyyət səviyyəsinin artması;
- demokratik inkişafın vacib şərti sayılan vətəndaşların və sosial institutların məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarını təmin edən mühitin yaradılması.

İnformasiya və kommunikasiya texnologiyalarının tətbiqinin səviyyəsi hər bir ölkənin intellektual və elmi potensialının, dövlət idarəçiliyində şəffaflığın və demokratiyanın inkişafının əsas göstəricilərindəndir. Dünya bazarında elektron ticarətin rolunun artdığı müşahidə olunur və ümumiyyətlə, gələcəkdə ölkələrin rəqabət aparmaq qabiliyyəti onların informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadəsindən asılı olacaqdır.

Dünya təcrübəsi göstərir ki, informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir və məhz bu texnologiyalar əhalinin sosial-iqtisadi vəziyyətində mövcud olan problemlərin həll olunması və yoxsulluğun azaldılması üçün tutarlı vasitələrdəndir.

Son illərdə Azərbaycanda informasiya və kommunikasiya texnologiyalarından istifadə sahəsində müəyyən addımlar atılmış, bir sıra sahələrdə bu texnologiyaların tətbiqində ciddi uğurlar qazanılmış və ümumiyyətlə, bu istiqamət dövlət siyasətinin prioritetlərindən birinə çevrilmişdir.

Azərbaycanın informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə istək və marağını, həmçinin bu istəyin reallığa çevrilmə imkanlarını aşağıdakılar əyani nümayiş etdirir:

- Azərbaycan hökuməti informasiya cəmiyyətinin formalaşdırılması prosesini sürətləndirməyə qərarlıdır, digər tərəfdən BMTİP və başqa beynəlxalq təşkilatlar bu sahədə ölkəyə texniki və maliyyə dəstəyi göstərməyə hazırdırlar;
- informasiya cəmiyyətinin hüquqi normativ bazasının yaradılması sahəsində Azərbaycan dövlətinin artıq müəyyən müsbət təcrübəsi vardır;
- respublikanın ali və orta ixtisas məktəblərinə tələbə qəbulu prosesində yeni texnologiyalar geniş şəkildə tətbiq edilmiş, on-line rejimində biliyin yoxlanılması

həyata keçirilmiş, bu sahədə informasiya resursları formalaşdırılmışdır. Əhaliyə İnternet vasitəsilə geniş informasiya xidmətləri göstərilir;
- respublikada məhkəmə hakimlərinin və bir sıra dövlət qulluqçularının seçilməsi prosesində informasiya və kommunikasiya texnologiyaları müvəffəqiyyətlə tətbiq edilmişdir;
- «Seçkilər» dövlət avtomatlaşdırılmış informasiya sistemi yaradılmışdır və 2000-ci ildən başlayaraq əhalinin səs verməsi zamanı İKT-dən geniş istifadə olunur;
- Azərbaycanın bir çox elm və təhsil müəssisələrini birləşdirən telekommunikasiya şəbəkəsi yaradılmışdır;
- informasiya və kommunikasiya texnologiyaları üzrə sertifikatlı mütəxəssislərin hazırlanması üçün regional Akademiyanın yaradılması layihəsi həyata keçirilmişdir;
- «Azərbaycanın milli pasport sistemi» layihəsində müasir informasiya və kommunikasiya texnologiyaları geniş tətbiq edilmişdir;
- Azərbaycanın bank sistemində real vaxt rejimində banklararası milli elektron ödəniş sistemi və kiçik ödənişlər üçün avtomatlaşdırılmış klirinq sistemi layihələri həyata keçirilmişdir;
- respublikada beynəlxalq təşkilatların dəstəyi ilə informasiya sahəsində maarifləndirmə yönümlü bir sıra regional mərkəzlər yaradılmışdır;
- TransAsiyaAvropa layihəsi çərçivəsində respublikada optik rabitə xətləri şəbəkəsi qurulmuş, bunun sayəsində mövcud rabitə kanalları əsasən rəqəmli rejimə keçirilmişdir;
- TRASEKA layihəsi çərçivəsində Bakı-Tbilisi dəmir yolu xətti boyunca ortik rabitə xətti istifadəyə verilmişdir;
- Gömrük sistemində idarəetmənin və prosedurların təkmilləşdirilməsi məqsədilə «Məlumatların ötürülmə şəbəkəsi və avtomatlaşdırılmış nəzarət sistemi» yaradılmışdır;
- Azərbaycan Respublikası Dövlət Neft Şirkətində «İnformasiyanın ötürülmə şəbəkəsi» və «Avtomatlaşdırılmış nəzarət sistemi» layihələri həyata keçirilmişdir;
- bir sıra dövlət və özəl qurumlarda informasiya və kommunikasiya texnologiyaları sahəsində əhəmiyyətli layihələr həyata keçirilmişdir və s.

## *2. Cari vəziyyəti xarakterizə edən əsas amillər*

Ölkənin bütövlükdə elektron hazırlığının, o cümlədən mövcud telekommunikasiya infrastrukturunun, texniki və proqram vasitələrinin, informasiya resursları və xidmətlərinin, hüquqi normativ bazanın təhlili göstərir ki, ölkədə informasiya cəmiyyətinin formalaşdırılması prosesini daha da sürətləndirmək üçün ilkin şərtlər və bir sıra obyektiv çətinliklər mövcuddur.

Cari vəziyyəti müsbət xarakterizə edən amillər:

- əhalinin savadlılıq və təhsil səviyyəsinin yüksək olması;
- internet şəbəkəsindən ölkə miqyasında istifadə edilməsi üçün münasib imkanların olması;
- milli özəl telekommunikasiya operatorlarının mövcudluğu və onların inkişafda olması;
- milli layihələrdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində geniş təcrübənin olması;
- ölkədə iqtisadi fəaliyyət və investisiyaların qoyuluşu üçün əlverişli şəraitin mövcudluğu və bunun beynəlxalq təşkilatlar, o cümlədən İqtisadi Əməkdaşlıq və

İnkişaf Təşkilatı tərəfindən tanınması və xarici investorların informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsinə marağının olması;
- Azərbaycanın əlverişli coğrafi mövqeyi və ölkə ərazisindən beynəlxalq nəqliyyat magistrallarının və rabitə kanallarının keçməsi;
- iqtisadiyyatın sabit inkişafı və ölkənin zəngin enerji resurslarına malik olması;
- «2000-ci il problemi»nin həlli üzrə keçirilmiş tədbirlər nəticəsində kompüter parkının və proqram vasitələrinin yetərincə yeniləşməsi və müasirləşməsi;
- respublika ərazisini praktiki olaraq bütünlüklə əhatə edən mobil telefon şəbəkəsinin formalaşması və onun daim inkişaf etdirilməsi;
- respublikada naqilli telefon şəbəkəsinin müasirləşdirilməsi və genişləndirilməsi, o cümlədən rabitə kanallarının rəqəmli rejimə keçirilməsi və s.

**Cari vəziyyəti mənfi xarakterizə edən amillər:**

- ölkədə informasiya və kommunikasiya texnologiyalarından istifadə ilə bağlı aparılan işlərin istiqamətlərini və onların prioritetlərini təyin edən, görülən işlərin əlaqələndirilməsini təmin edən məqsədyönlü dövlət siyasətinin hələlik tam müəyyən edilməməsi;
- informasiya və kommunikasiya texnologiyalarından istifadə ilə əlaqədar yaranan münasibətləri tənzimləyən hüquqi normativ bazanın tam işlənilməməsi;
- bir tərəfdən ölkənin keçid iqtisadiyyatı dövrü yaşaması, digər tərəfdən isə Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikası ərazisinin 20%-nin işğal olunması nəticəsində bir milyondan çox qaçqının və məcburi köçkünün mövcud olması ilə əlaqədar, informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə hökumətin yetərincə maliyyə vəsaitləri ayırmaq imkanlarının olmaması;
- ölkənin keçid iqtisadiyyatı dövrü yaşaması ilə əlaqədar olaraq inkişaf etmiş ölkələrə «beyin axınının» mövcudluğu;
- informasiya və kommunikasiya texnologiyalarının imkanları və üstünlükləri barədə geniş əhali kütlələrinin az məlumatlı olması;
- informasiya və kommunikasiya texnologiyaları sahəsində yüksək səviyyəli mütəxəssislərin çatışmazlığı;
- ölkə miqyasında kompüterləşdirmənin səviyyəsinin aşağı olması;
- təhsilin bütün səviyyələrində informasiya və kommunikasiya texnologiyaları ilə əlaqədar olan fənlərin tədrisinin müasir dövrün tələblərinə cavab verməməsi;
- informasiya və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsinə görə şəhər və rayonlar arasında kəskin fərqin olması;
- Azərbaycan dilinin informasiya və kommunikasiya texnologiyaları sahəsində geniş istifadə olunmasında ciddi problemlərin olması;
- İKT sahəsində Azərbaycan dilində ədəbiyyatın azlığı;
- ümummilli informasiya resurslarının formalaşması prosesinin həddən artıq ləng getməsi;
- respublikanın informasiya və kommunikasiya texnologiyaları sahəsində bir çox beynəlxalq inteqrasiya yönümlü layihələrdə fəal iştirak etməməsi;
- respublikada qüvvədə olan telekommunikasiya tariflərinin informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə maneələr yaratması;
- telekommunikasiya sahəsində innovasiyaların tətbiqini ləngidən və azad rəqabətə mane olan dövlət inhisarının mövcudluğu.

Azərbaycanda informasiya cəmiyyətinin formalaşdırılması istiqamətində dövlət tərəfindən atılan addımları yuxarıda göstərilən mövcud reallıqlar şərtləndirir.

## *3. Milli Strategiyanın əsas məqsəd və vəzifələri*

Milli Strategiya informasiya və kommunikasiya texnologiyalarından istifadə və onun genişləndirilməsi sahəsində dövlətin siyasətini əks etdirir, əsas məqsəd və vəzifələri, prioritetləri və fəaliyyətin əsas istiqamətlərini müəyyən edir. Strategiya cəmiyyətin tələblərini, qabaqcıl dünya təcrübəsini nəzərə alır və ölkənin inkişafına, demokratik cəmiyyət quruculuğuna, Azərbaycanın beynəlxalq aləmə inteqrasiya olunmasına xidmət edir.

Milli Strategiyanın əsas məqsədi informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etməklə ölkənin demokratik inkişafına kömək etmək və informasiya cəmiyyətinə keçidi təmin etməkdir.

Milli Strategiyanın əsas vəzifələrinə aşağıdakılar aiddir:

- informasiya cəmiyyətinin hüquqi əsaslarının yaradılması və inkişaf etdirilməsi;
- cəmiyyətdə insan amilinin inkişaf etdirilməsi, vətəndaşların keyfiyyətli təhsil, tibbi xidmət və sosial təminatlar alması üçün əlverişli şəraitin yaradılması;
- vətəndaşların və sosial institutların məlumat almaq, onu yaymaq və istifadə etmək kimi hüquqlarının təmin edilməsi üçün müvafiq mühitin yaradılması;
- effektiv, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsi və yerli özünüidarəetmənin həyata keçirilməsi, elektron hökumətin yaradılması, elektron ticarətin formalaşdırılması və inkişaf etdirilməsi;
- ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması və inkişaf etdirilməsi;
- xalqın tarixi, ədəbi və mədəni irsinin qorunub saxlanması və onun geniş təbliği;
- inkişaf etmiş informasiya və kommunikasiya infrastrukturunun yaradılması, vahid milli elektron informasiya məkanının formalaşdırılması, informasiya və kommunikasiya xidmətlərinin genişləndirilməsi;
- ölkənin informasiya təhlükəsizliyinin təmin olunması;
- ölkənin ümumdünya elektron informasiya məkanına inteqrasiyası;
- milli proqram vasitələrinin yaradılması, informasiya və kommunikasiya texnologiyaları məhsullarının istehsalının (İKT sənayesinin) inkişaf etdirilməsi;
- ölkənin «rəqəmsal geriliyinin» aradan qaldırılması.

Strategiyanın həyata keçirilməsi nəticəsində dövlət idarəetməsində şəffaflıq təmin olunacaq, davamlı iqtisadi dirçəlişə nail olunacaq, əhalinin həyat şəraiti yüksək dərəcədə yaxşılaşacaq, ölkədə vahid elektron informasiya məkanı formalaşacaq, bütün vətəndaşlar üçün informasiya əldə etmək imkanları yaranacaq və milli maraqlar nəzərə alınmaqla ölkə ümumdünya elektron informasiya məkanına inteqrasiya olunacaqdır.

## *4. İnformasiya cəmiyyətinin formalaşmasında dövlətin rolu*

Müasir tələblər baxımından ölkədə informasiya və kommunikasiya texnologiyalarının inkişaf səviyyəsi bütövlükdə dövlətin hərbi-siyasi və sosial-iqtisadi potensialının göstəricilərindəndir. Azərbaycan bu mənada istisna hal təşkil etmir və informasiya cəmiyyətinə keçid üçün ölkədə əlverişli şəraitin yaradılması Azərbaycan dövlətinin siyasi məqsədlərindən biridir.

Ölkənin informasiyalaşdırılması yolu ilə informasiya cəmiyyətinin formalaşdırılması təşkilati, sosial-iqtisadi, elmi-texniki, texnoloji və ən başlıcası, siyasi amillərə malik olan mürəkkəb prosesdir, onun müvəffəqiyyətlə həyata keçirilməsinə cəlb olunan siyasi-inzibati, maliyyə, insan, texniki və s. resurslardan səmərəli istifadə olunmasını,

prioritetlərin və fəaliyyət istiqamətlərinin düzgün müəyyən edilməsini, görülən işlərin tənzimlənməsini və əlaqələndirilməsini tələb edir.

Bu səbəbdən informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsi sahəsində «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanununda təsbit olunmuş dövlət siyasətinin həyata keçirilməsi üzrə milli strategiya və fəaliyyət planının olması çox vacibdir.

İnformasiya cəmiyyətinə keçid üçün əlverişli şəraitin yaradılmasında dövlət aparıcı rol oynayır və onun fəaliyyəti əsasən aşağıdakıları əhatə edir:

- qanunvericilik bazasının formalaşdırılması və mütəmadi olaraq təkmilləşdirilməsi;
- ölkə daxilində informasiya texnologiyalarının tətbiqi ilə bağlı fəaliyyətin təhlili və tənzimlənməsi;
- milli və dövlət informasiya sistemlərinin yaradılması, informasiya resurslarının formalaşdırılması, dövlət orqanlarının bu istiqamətdə fəaliyyətinin idarə edilməsi;
- yeni şəraitə münasib olan, xarici və yerli sərmayələrin cəlb edilməsi və iqtisadi fəaliyyətdə ədalətli rəqabətin aparılmasına xidmət edən əlverişli mühitin yaradılması;
- cəmiyyətin geniş təbəqələrinin strategiyanın həyata keçirilməsinə cəlb edilməsi məqsədilə siyasi, hüquqi, iqtisadi və inzibati mexanizmlərdən istifadə etməklə prosesin bütün iştirakçıları üçün bərabər şəraitin yaradılması, onların fəaliyyətinin əlaqələndirilməsi;
- hər bir vətəndaşın hüquq və azadlıqlarının müdafiəsi, şəxsiyyət haqqında və özəl məlumatların qorunmasının təmin olunması;
- vətəndaşların dövlət informasiya resurslarına müraciət etməsi üçün imkan yaradılması;
- ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi;
- strategiyanın həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitlərinin səfərbər edilməsi, dövlət əhəmiyyətli və sosial yönümlü layihə və proqramların dəstəklənməsi;
- milli informasiya və kommunikasiya texnologiyalarının, texniki və proqram məhsullarının istehsalı üçün əlverişli şəraitin yaradılması, onların dünya bazarına çıxarılmasının stimullaşdırılması;
- informasiya və kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən özəl şirkətlər, xüsusilə kiçik və orta müəssisələr üçün əlverişli şəraitin yaradılması;
- müasir informasiya və kommunikasiya texnologiyalarının iqtisadiyyatın bütün sahələrində tətbiqi üçün əlverişli şəraitin yaradılması;
- dövlət idarəetməsində və yerli özünüidarəetmədə müasir texnologiyalardan istifadə olunması;
- elektron hökumətin formalaşdırılması istiqamətində ardıcıl fəaliyyətin həyata keçirilməsi;
- informasiya və kommunikasiya texnologiyaları sahəsində ölkənin milli maraqlarını təmin edən beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi.

## *5. İnformasiyalaşdırmanın əsas prinsipləri*

Cəmiyyətin informasiyalaşdırılmasına yönəlmiş Milli Strategiya ayrı-ayrı sahələr üçün yaradılan ənənəvi konsepsiya və proqramlardan fərqli olaraq çoxaspektlidir və onun əhatə dairəsinə dövlət siyasəti, sosial-iqtisadi sfera, texnika və texnologiyalar, elm və mədəniyyət daxildir.

Strategiya və onun həyata keçirilməsilə bağlı fəaliyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğundur, milli maraqların qorunmasına xidmət edir, beynəlxalq qurumların — BMT-nin, Avropa Şurasının müvafiq standartlarını, tələb və tövsiyələrini, baxılan sahə üçün mühüm olan və Azərbaycan Respublikası tərəfindən qəbul olunmuş digər beynəlxalq aktların müddəalarını nəzərə alır.

Milli Strategiya Azərbaycan Respublikasında informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və inkişaf etdirilməsinin səmərəliliyini təmin etmək və bu prosesdə bütün maraqlı tərəflərin (dövlət strukturları, elm və tədris müəssisələri, özəl qurumlar, qeyri-hökumət təşkilatları, ictimai təşkilatlar və vətəndaşlar) iştirakı üçün bərabər şərait yaratmaq məqsədilə aşağıdakı əsas prinsipləri müəyyən edir:

- Maarifləndirmə — ictimaiyyətin dəstəyini almaq, fəaliyyətin effektivliyini təmin etmək və bütövlükdə informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin asanlaşdırılması üçün bu texnologiyalara dair bilik və məlumatlar geniş şəkildə əhaliyə çatdırılır.
- Şəffaflıq — informasiyalaşdırma ilə bağlı bütün fəaliyyət aşkar şəraitdə həyata keçirilir, fəaliyyətlə əlaqəli əsas qaydalar, tədbirlər bütün vasitələrlə ictimaiyyətə çatdırılır, ictimai müzakirələr aparılır, bütün tərəflərin fikri öyrənilir və nəzərə alınır.
- Bərabərlik — cəmiyyətdəki mövqeyindən və mülkiyyət formasından asılı olmayaraq, prosesin bütün iştirakçılarının maraqları eyni dərəcədə nəzərə alınır, sosial ədalət prinsipi gözlənilir.
- İnnovasiya — elmi-texniki tərəqqinin yenilikləri nəzərə alınır, müasir elmi tədqiqatların aparılmasına diqqət artırılır.
- Mərhələlilik — informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafını nəzərə alaraq və maliyyə imkanlarından səmərəli istifadəni təmin etmək üçün informasiyalaşdırma ilə bağlı fəaliyyət mərhələlər üzrə həyata keçirilir, proqram və layihələr hazırlanarkən prioritetlər və nəticələrin qısa müddətdə əldə edilməsi nəzərə alınır.
- Beynəlxalq əməkdaşlıq — informasiya və kommunikasiya texnologiyaları üzrə beynəlxalq layihələrin hazırlanmasında və həyata keçirilməsində respublika fəal iştirak edir, ölkədə aparılan informasiyalaşdırma ilə bağlı fəaliyyətin ümumdünya informasiya cəmiyyətinin inkişafı ilə sıx əlaqəsi təmin olunur.
- «Birinci rəhbər» prinsipi — dövlət idarəetmə və yerli özünüidarəetmə orqanlarının, təşkilat və müəssisələrin rəhbərləri informasiyalaşdırmanın həyata keçirilməsində maraqlıdırlar və onlar bu fəaliyyəti bilavasitə idarə edirlər.
- Millilik — milli informasiya resurslarının hazırlanmasına, milli proqram təminatının yaradılmasına üstünlük verilir, Azərbaycanda yaşayan digər xalqların informasiya resurslarının formalaşması üçün şərait yaradılır.

## *6. Prioritetlər və fəaliyyətin əsas istiqamətləri*

Milli Strategiyanın əsas prioritetləri bunlardır:

- vətəndaşların informasiya tələbatının ödənilməsi, insanın hərtərəfli inkişafının təmin olunması, ölkənin intellektual potensialının artırılması;
- informasiya cəmiyyətinə keçidi təmin etmək üçün hüquqi mühitin formalaşdırılması, effektiv, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsi və yerli özünüidarəetmənin həyata keçirilməsi;
- informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə ölkənin iqtisadi potensialının gücləndirilməsi;

- informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə milli tarixi, ədəbi və mədəni irsin qorunub saxlanması və təbliği.

Milli Strategiya aşağıdakı əsas fəaliyyət istiqamətlərini müəyyən edir:

- informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə təhsilin təkmilləşdirilməsi, İKT sahəsində milli kadrların hazırlanması və ölkədə minimal İKT savadlılığının təmin olunması;
- informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə sosial yönümlü sahələrin inkişaf etdirilməsi;
- telekommunikasiya infrastrukturunun inkişaf etdirilməsi;
- elektron hökumətin formalaşdırılması və inkişaf etdirilməsi;
- informasiyalaşdırma ilə əlaqədar hüquqi normativ bazanın yaradılması və inkişaf etdirilməsi;
- elektron iqtisadiyyatın formalaşdırılması və inkişaf etdirilməsi;
- milli informasiya resurslarının formalaşdırılması və inkişaf etdirilməsi;
- informasiya və kommunikasiya texnologiyaları sahəsində elmi-texniki və istehsalat potensialının yüksəldilməsi;
- ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi, şəxsiyyət haqqında və özəl məlumatların qorunması.

Fəaliyyət istiqamətləri üzrə aparılacaq əsas işlər aşağıda göstərilmişdir.

**İKT və təhsilin təkmilləşdirilməsi:**

- elm və təhsilin informasiyalaşdırılması vasitəsilə ölkədə kadr hazırlığının təkmilləşdirilməsi, təhsilin monitorinqi, məsafədən təhsil və fasiləsiz (ömür boyu) təhsilalmanın həyata keçirilməsi;
- informasiya və kommunikasiya texnologiyaları sahəsində milli mütəxəssislərin hazırlanması, təhsilin bütün səviyyələrində İKT üzrə bilik standartlarının hazırlanması və tətbiqi;
- elm və təhsil sahəsində informasiya və biliklərin mübadiləsini təmin edən kompüter şəbəkələrinin inkişaf etdirilməsi;
- əhalinin bütün təbəqələrinin informasiya resurslarına müraciət imkanlarını genişləndirmək üçün regional və məhəlli informasiya-təlim mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi, əhalinin az təminatlı təbəqələrinə pulsuz informasiya xidmətlərinin göstərilməsi üçün şəraitin yaradılması;
- əhalinin müasir informasiya və kommunikasiya texnologiyaları vasitələri və onların istifadəsi barədə maarifləndirilməsi, cəmiyyətin İKT savadlılığının artırılması.

**İKT-dən istifadə etməklə sosial yönümlü sahələrin inkişaf etdirilməsi**

- sosial yönümlü sahələrdə informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi;
- informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə əhaliyə sosial-məişət xidmətlərinin göstərilməsi, əhalinin az təminatlı təbəqələri üçün pulsuz informasiya xidməti imkanlarının yaradılması;
- səhiyyə sistemində informasiya və kommunikasiya texnologiyalarından istifadənin inkişaf etdirilməsi, əhaliyə məsafədən tibbi xidmətlərin (tele-tibb) göstərilməsi;

- əlillərin və fiziki imkanları məhdud olanların sosial-mədəni tələbatlarının informasiya və kommunikasiya texnologiyalarının köməyilə ödənilməsi;
- informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə yoxsulluğun və işsizliyin azaldılması, əhali üçün məsafədən işləmək (tele-iş) imkanlarının yaradılması;
- yeni texnologiyalardan istifadə etmək yolu ilə insanı əhatə edən ətraf mühitin sağlamlaşdırılması;
- gender problemlərinin həllində informasiya və kommunikasiya texnologiyalarından istifadə edilməsi.

**Telekommunikasiya infrastrukturunun inkişaf etdirilməsi**

- ölkədə yeni telekommunikasiya şəbəkələrinin, müasir rabitə xətlərinin yaradılması və inkişaf etdirilməsi;
- verilənlərin ötürülməsi üçün ölkə miqyaslı şəbəkələrin, o cümlədən İnternet şəbəkəsinin inkişaf etdirilməsi, şəhər və rayonlar arasında bu sahədə olan fərqlərin aradan götürülməsi;
- telekommunikasiya sahəsində liberallaşdırma siyasətinin aparılması, azad rəqabətə imkan verilməsi, verilənlərin ötürülməsi şəbəkə və kanallarının təşkili və istismarı ilə məşğul olan ümummilli səviyyəli verilənlər operatorlarının formalaşması və onların fəaliyyəti üçün əlverişli şəraitin yaradılması;
- telekommunikasiya xidmətləri sahəsində çevik tarif siyasətinin aparılması.

**Elektron hökumət**

- dövlət idarəetmə orqanlarında və təşklatlarında, yerli özünüidarəetmə orqanlarında informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiqi və inkişaf etdirilməsi;
- vətəndaşların, qeyri-hökumət təşkilatlarının dövlətin idarə edilməsində iştirakı üçün münasib şəraitin yaradılması;
- informasiya və kommunikasiya texnologiyalarından istifadə etməklə siyasi sistemin müxtəlif tərkib hissələri arasında əməkdaşlığın gücləndirilməsi;
- dövlət qulluqçularının informasiya və kommunikasiya texnologiyaları sahəsində biliklərinin müntəzəm artırılması mexanizminin hazırlanması və həyata keçirilməsi;
- dövlət idarəetmə orqanlarında və təşkilatlarında elektron sənəd mübadiləsinin geniş tətbiqi;
- vətəndaşlara informasiya xidmətləri göstərən dövlət avtomatlaşdırılmış məlumat sistemlərinin, tematik, sahə, regional informasiya resurslarının yaradılması;
- seçkilər prosesində informasiya texnologiyaları tətbiqinin inkişaf etdirilməsi.

**İKT ilə əlaqədar hüquqi-normativ baza**

- informasiya cəmiyyətinə keçidi təmin edən hüquqi normativ bazanın işlənilməsi və inkişaf etdirilməsi;
- informasiya və kommunikasiya texnologiyaları ilə bağlı dövlət standartlarının hazırlanması;
- informasiya və kommunikasiya texnologiyaları sahəsində lisenziyalaşdırma ilə bağlı fəaliyyətdə şəffaflığın təmin olunması, beynəlxalq təcrübənin nəzərə alınması;
- ümumi istifadə üçün nəzərdə tutulmuş geniş əhatəli normativ hüquqi informasiya bankının yaradılması.

**Elektron iqtisadiyyatı**

- elektron ticarətin həyata keçirilməsi, elektron ödənişlərin geniş miqyasda istifadəsi üçün əlverişli şəraitin yaradılması;
- informasiya xidmətləri sahəsinin inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılması;
- informasiya və kommunikasiya texnologiyalarının iqtisadiyyatın dövlət və özəl sektorlarında geniş tətbiq olunmasının stimullaşdırılması;
- biliklərə əsaslanan iqtisadiyyata keçid üçün şəraitin yaradılması.

**Milli informasiya resursları**

- vahid milli elektron informasiya məkanının formalaşdırılması;
- elektron informasiya məkanında Azərbaycan dilinin geniş istifadəsinin təmin olunması;
- milli tarixi, ədəbi və mədəni irsin qorunub saxlanması və təbliğində, o cümlədən kitabxana, muzey və arxiv işlərində informasiya və kommunikasiya texnologiyalarının geniş tətbiq olunması;
- milli azlıqların mədəni inkişafına xidmət edən informasiya resurslarının formalaşdırılmasına şərait yaradılması;
- milli informasiya resurslarının beynəlxalq aləmə çatdırılması üçün onların ümumdünya elektron informasiya məkanına inteqrasiyası;
- Azərbaycan diasporuna elektron informasiya dəstəyinin təmin olunması;
- İnternetin Azərbaycan seqmentinin genişləndirilməsi, milli axtarış saytlarının inkişaf etdirilməsi;
- Azərbaycan dilli proqram təminatının yaradılması və inkişaf etdirilməsi.

**Elmi-texniki və istehsalat potensialının yüksəldilməsi**

- informasiya və kommunikasiya texnologiyalarının yaradılması və geniş tətbiq olunmasını təmin edən elm sahələrinin inkişaf etdirilməsi;
- innovasiya fəaliyyətinin stimullaşdırılması;
- informasiya və kommunikasiya texnologiyaları sənayesinin formalaşdırılması, inkişaf etdirilməsi və bu sahəyə investisiyaların cəlb olunmasının stimullaşdırılması;
- İKT xidmətlərinin, İKT məhsullarının istehsalı və onların ixracının stimullaşdırılması;
- informasiya və kommunikasiya texnologiyalarının təbliği üçün nümunəvi təlim məsləhət mərkəzlərinin, texnoparkların yaradılması;
- informasiya və kommunikasiya texnologiyaları sahəsində istehsalla məşğul olan kiçik və orta müəssisələrin fəaliyyətinin stimullaşdırılması.

**İnformasiya təhlükəsizliyi**

- informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması, elektron cinayətkarlığa qarşı mübarizə aparılması;
- milli maraqları nəzərə almaqla vətəndaşların və bütün təşkilatların təhlükəsiz olaraq informasiya əldə etmək və ondan istifadə etmək hüquqlarının təmin olunması üçün şəraitin yaradılması;
- vətəndaşların informasiya təhlükəsizliyini təmin edən mühitin yaradılması.

Göstərilən işlərin mürəkkəbliyi, böyük vəsait tələb olunması, dünyada informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı iqtisadiyyatı keçid dövründə olan Azərbaycan Respublikasında strategiyanın mərhələlər üzrə planlı surətdə həyata keçirilməsini şərtləndirir.

Milli Strategiya fəaliyyətin əsas istiqamətlərini və məzmununu konseptual baxımdan müəyyənləşdirdiyindən onun gerçəkləşməsi üçün hər bir istiqamət üzrə fəaliyyət planları **milli İKT-proqramlar** işlənib hazırlanır və konkret işlər layihələr vasitəsilə həyata keçirilir.

Strategiyanın həyata keçirilməsi prosesinin müvəffəqiyyəti onun idarə edilməsinin düzgün təşkilindən bilavasitə asılıdır. Bu proses informasiya və kommunikasiya texnologiyalarından istifadə və onun inkişaf etdirilməsi sahəsində dövlətin siyasətini həyata keçirən idarəetmə strukturları tərəfindən əlaqələndirilir, tənzimlənir və idarə olunur.

Strategiyanın həyata keçirilməsində Azərbaycan Respublikasının digər dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətlərində vahid siyasətin həyata keçirilməsinin təmin edilməsi məqsədilə prosesin iştirakçılarının bu istiqamətdə fəaliyyəti Xarici İşlər Nazirliyi tərəfindən əlaqələndirilir.

İnformasiya təhlükəsizliyi dövlətin inkişafına, milli təhlükəsizliyə təsir göstərən mühüm amillərdən biri olduğundan bu istiqamətdə aparılan fəaliyyət Milli Təhlükəsizlik Nazirliyi tərəfindən əlaqələndirilir.

Strategiyanın həyata keçirilməsi elmi əsaslarla aparılır və demokratik qaydada idarə edilir. Onun uğurunu görülən işlərin sistemli və ardıcıl olaraq aparılması, əhalinin geniş kütlələri tərəfindən dəstəklənməsi, milli dialoqa nail olunması, açıq müzakirələrin və məsləhətləşmələrin aparılması, verilən təkliflərə obyektiv baxılması, layihənin işlənib hazırlanmasında və həyata keçirilməsində maraqlı tərəflərin iştirakı təmin edir.

Ölkənin informasiya cəmiyyətinə doğru irəliləməsinin səviyyəsini müəyyənləşdirmək üçün ölkədəki elektron vəziyyətin daimi monitorinqi aparılır. Bu məqsədlə dünya təcrübəsi əsasında milli nailiyyət göstəriciləri işlənib hazırlanır. Ölkədəki elektron vəziyyətin daimi monitorinqi və onun qiymətləndirilməsi dövlətin informasiya siyasətinin əsas vəzifələrindən biridir.

## 7. Maliyyə təminatı

Milli Strategiyanın uğurla həyata keçirilməsi, onun məqsəd və vəzifələrinə tam nail olunması üçün böyük maliyyə vəsaitləri tələb olunur. Bu məsələnin həlli Azərbaycan dövlətinin daxili maliyyə imkanlarının səfərbərliyi və xarici maliyyə vəsaitlərinin cəlb edilməsi ilə həll oluna bilər. Ölkənin iqtisadi inkişafı üçün böyük əhəmiyyəti olan ayrı-ayrı idarəetmə və sosial yönümlü sahələrdə informasiya və kommunikasiya texnologiyalarından istifadə ilə bağlı fəaliyyət dövlət tərəfindən maliyyələşdirilə bilər.

Bu sahənin uzunmüddətli stabil tərəqqisi naminə müasir dövrün tələblərinə uyğun olan rasional maliyyə siyasəti formalaşdırılmalıdır. Strategiyanın həyata keçirilməsi aşağıdakı əsas mənbələrdən maliyyələşdirilir:

- dövlət büdcəsində xüsusi olaraq informasiya və kommunikasiya texnologiyaları sahəsi üçün nəzərdə tutulmuş vəsaitlər;

- müxtəlif yerli dövlət və qeyri-dövlət fondlarının vəsaitləri;
- mərkəzi və yerli idarəetmə orqanlarının, dövlət təşkilatlarının informasiya və kommunikasiya texnologiyaları sahəsi üçün nəzərdə tutulmuş vəsaitləri;
- xarici və yerli investisiyalar, məqsədli kreditlər;
- beynəlxalq və xarici ölkə təşkilatlarının texniki və maliyyə yardımı, qrantlar.

Strategiyanın maliyyələşdirilməsinə cəlb olunan maliyyə vəsaitlərinin istifadəsində aşağıdakılar təmin olunmalıdır:

- informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar işlərə əlavə yerli və beynəlxalq maliyyə vəsaitlərinin, o cümlədən investisiyaların cəlb edilməsi üçün hökumət tərəfindən əlverişli iqtisadi şəraitin yaradılması;
- informasiya və kommunikasiya texnologiyaları sahəsi üçün əlverişli maliyyə-kredit, gömrük və vergi mexanizmlərinin işlənib tətbiq olunması;
- informasiyalaşdırmaya vəsait qoyuluşunun iqtisadi səmərəliliyinin qabaqcadan qiymətləndirilməsi və özünümaliyyələşdirən layihə və proqramlara üstünlük verilməsi, tender mexanizmlərindən geniş istifadə edilməsi;
- müvafiq dövlət təşkilatları tərəfindən informasiya və kommunikasiya texnologiyaları sahəsinin inkişafı üçün xarici və yerli investisiyalar, güzəştli kreditlər və qrantlar cəlb edilməsi zamanı vahid və əlaqəli siyasətin aparılması;
- ölkə miqyasında yerinə yetirilən və planlaşdırılan layihə və proqramlarda informasiya və kommunikasiya texnologiyalarının tətbiqinə lazımi maliyyə vəsaitlərinin ayrılması;
- sosial sahələrdə (elm, təhsil, mədəniyyət, səhiyyə və s.) informasiya və kommunikasiya texnologiyalarının tətbiqi üçün maliyyə vəsaitlərinin cəlb edilməsinin iqtisadi mexanizmlərinin yaradılması.

Milli Strategiyanın ölkənin gələcək inkişafı üçün mühüm rol oynadığı, onun ümummilli əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq informasiya və kommunikasiya texnologiyaları sahəsinə cəlb olunan vəsaitlərin Azərbaycan Respublikasının hökuməti tərəfindən səmərəli və məqsədyönlü sərf edilməsinin daimi monitorinqi təmin edilir və bu barədə ictimaiyyət müntəzəm olaraq məlumatlandırılır.

## *8. Gözlənilən nəticələr*

Strategiyanın müəyyənləşdirdiyi fəaliyyətin həyata keçirilməsi nəticəsində dövlətin, sosial institutların, qeyri-hökumət təşkilatlarının, özəl şirkətlərin, bütövlükdə cəmiyyətin və onun ayrı-ayrı üzvlərinin maraqlarının ödənildiyi informasiya cəmiyyətinə keçid üçün ölkədə əlverişli mühit formalaşacaq və 10 illik müddətdə aşağıdakı strateji nəticələrə nail olunacaqdır:

- Azərbaycan Respublikası informasiya və kommunikasiya texnologiyaları sahəsində Avropanın qabaqcıl ölkələri sırasına daxil olacaq, Cənubi Qafqaz və Transxəzər regionlarında ölkənin İKT-lider mövqeyi təmin olunacaqdır;
- effektiv, şəffaf və nəzarət oluna bilən dövlət idarəetməsi və yerli özünüidarəetmə həyata keçiriləcək, əhalinin geniş təbəqələrinin idarəetmə prosesində iştirakı təmin olunacaqdır;
- informasiya resurslarına və xidmətlərinə azad şəkildə və asanlıqla müraciət etmənin təşkili yolu ilə əhaliyə informasiya xidmətləri göstəriləcəkdir;
- informasiya və kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində ölkənin iqtisadiyyatında əhəmiyyətli yüksəliş baş verəcək, yoxsulluğun və işsizliyin aradan qaldırılması istiqamətində yüksək nailiyyətlər əldə ediləcəkdir;

- informasiya cəmiyyətinə keçid üçün əlverişli hüquqi mühit, intellektual potensial, telekommunikasiya infrastrukturu və milli elektron informasiya məkanı formalaşacaqdır;
- İnternetin Azərbaycan seqmenti inkişaf etdiriləcək, ölkənin informasiya təhlükəsizliyi təmin olunacaq, Azərbaycan Respublikasının beynəlxalq elektron informasiya məkanına inteqrasiyası təmin ediləcəkdir;
- milli informasiya resursları formalaşdırılacaq, Azərbaycan dilinin milli elektron informasiya məkanında geniş istifadəsi təmin olunacaq, Azərbaycanda yaşayan bütün xalqların tarixi və mədəni irsinin qorunub saxlanması və təbliği üçün informasiya və kommunikasiya texnologiyalarından geniş istifadəsi təmin olunacaqdır;
- mülkiyyət formasından asılı olmayaraq bütün təşkilat və müəssisələr İKT-infrastrukturdan istifadə edəcək, azad rəqabətin təmin olunduğu telekommunikasiya bazarı formalaşacaq və effektiv fəaliyyət göstərəcək, ölkənin dünya elektron ticarəti və biznesi proseslərində birbaşa iştirakı təmin ediləcəkdir;
- ümumi daxili məhsulun informasiya və kommunikasiya texnologiyaları ilə əlaqədar hissəsi əhəmiyyətli dərəcədə artacaqdır.

İnformasiya texnologiyaları epoxasında dövlətlə cəmiyyət arasındakı qarşılıqlı asılılıq getdikcə daha da artacaq. Dünya tarixi təcrübəsi göstərir ki, dövlətlə vətəndaş cəmiyyətinin münasibətlərində heç vaxt tam harmoniya olmayıb. Lakin hakimiyyətlə vətəndaş arasında yalnız qarşılıqlı hörmət, işgüzar qarşılıqlı fəaliyyət və əməkdaşlıq əsasında informasiya cəmiyyətinə doğru uğurlu hərəkət mümkündür. Uzun sürən bu tarixi yolda Azərbaycan özünün ilk addımlarını atır.